| Xəstəlik sinifi (XBT-10) | D - Qanyaradıcı orqanların xəstəlikləri |
|---|---|

| İlkin versiyanın tərtibatçı (İSİM) | Qaziyeva S. |
|---|---|

| XBT-10 rubrikası | Xəstəliklər |
|---|---|
| **D57** | **Orağabənzər – hüceyrə pozğunluqları** |
| **D57.0** | Krizlə müşayiət olunan orağabənzər hüceyrəli anemiya<br>Krizlə müşayiət olunan Hb-SS xəstəliyi |
| **D57.1** | Krizsiz müşayiət olunan orağabənzər hüceyrəli anemiya<br>Orağabənzər hüceyrəli:<br>• anemiya<br>• xəstəlik } ƏGO<br>• pozğuluq |
| **D57.2** | İkiqat heteroziqot orağabənzər hüceyrəli pozğunluqlar<br>Hb-SC<br>Hb-SD } xəstəliyi<br>Hb-SE<br>Orağabənzər hüceyrə talassemiya |
| **D57.3** | **Orağabənzər hüceyrə əlamətlərinin daşıyıcılığı**<br>S hemoqlobininin (Hb-S) daşıyıcılığı<br>Heteroziqot S hemoqlobini (HbAS) |
| **D57.8** | **Digər orağabənzər – hüceyrə pozğunluqları** |

## Müalicə

- Geniş spektrli antibiotiklər (əgər infeksiya varsa)
- Analgetiklər və venadaxili rehidratasiya (vazookklyuziv ağrıkriz vaxtı)

- Oksigen (hipoksiya oldugu xalda)
- Bəzi hallarda qan köçürmələri (gemotransfuziyalar) istifadə olunur

- İmmunizasiya, fol turşusu , hidroksikarbamid.

Müalicə müntəzəm bərpaedici tədbirləri, həmçinin baş verdikdə ağırlaşmalar üçün xüsusi dəstəkləyici terapiyanı əhatə edir. Müalicə simptomatikdir. Hal-hazırda bu xəstəliyini *in vivo* müalicə etmək üçün effektiv dərmanlar yoxdur.

**Ümumi bərpaedici müalicə**
Uzun müddətli müalicədə aşağıdakı tədbirlərdən istifadə olunur:

- ✓ Pnevmokok, Haemophilus influenzae, qrip (aktivləşdirilmiş, lakin cansız) və meningokoklara qarşı vaksinlər.

***Pnevmovaks 23*** (*Pneumovax 23*) Polivalent pnevmokok vaksin
Əzələdaxili və dərialtı tətbiq üçün məhlul, 0,5 ml/doza

- ✓ 4 aydan 6 yaşa qədər uzunmüddətli oral penisilin profilaktikasını əhatə edən profilaktik antibiotik terapiyası
- ✓ ***Fol turşusu*** (*Folic acid*) preparatların qəbulu

Oral fol turşusu adətən gündə bir dəfə 1 mq dozada tövsiyə olunur.

- ✓ ***Qidroksikarbamidın*** (Hydroxycarbamidum) qəbulu

Təkrarlanan ağrı krizləri və ya digər ağırlaşmaları olan xəstələr üçün göstərilir. Dərmanın dozası dəyişə bilər və qan testinin nəticələrinə və mənfi təsirlərin mövcudluğuna əsasən tənzimlənir.

Orağabənzər – hüceyrə xəstəliyini müalicə etmək üçün üç əlavə dərman mövcuddur:
***L-qlutamin*** (*L-Glutamine*)
***Krizanlizumab*** (*Crizanlizumab*)
***Vokselotor*** (*Voxelotor)*

## Ədəbiyyat

1.Справочник MSD (Глобальная база медицинских знаний)
https://www.msdmanuals.com/ru

Серповидно-клеточная анемия (болезнь Hb S). Авторы: *Evan M.*

*Braunstein , MD, PhD, Johns Hopkins University School of Medicine*
Проверено/пересмотрено июнь 2022

2. Регистр лекарственных средств России. https://www.rlsnet.ru/drugs/pnevmovaks-23-vakcina-pnevmokokkovaya-polivalentnaya-74685